**«Azərbaycanda innovasiya əsaslı və dayanıqlı vətəndaş cəmiyyətinin inkişafı» layihəsi çərçivəsində Kiçik Qrant Proqramlarında iştirakla bağlı**

# SUALLAR və CAVABLAR

**Son yenilənmə tarixi: 17 iyun 2022-ci il (son versiya)**

**1-ci Qrant Proqramı - İnklüziv yerli inkişafda vətəndaş cəmiyyəti təşkilatlarının iştirakının dəstəklənməsi**

**2-ci Qrant Proqramı - Dəlil əsaslı siyasətlərin hazırlanmasında, siyasətlə bağlı dialoq və müzakirələrdə vətəndaş cəmiyyəti təşkilatlarının iştirakını dəstəklənməsi**

| N | Sual | Cavab |
|---|---|---|
| 1. | Layihə hazırlanarkən hər 3 mövzunu əhatə etməsi mümkündürmü? | Layihə təkliflərinin bir və ya bir neçə prioritet mövzunu əhatə etməsi nəzərdə tutulur. Bununla belə, bir layihədə 2-dən artıq mövzunun seçilməsi tövsiyə edilmir. |
| 2. | Layihənin icrasına nə vaxtdan başlamaq tövsiyə olunur? | Layihənin icrasının mükafatlandırılacaq QHT və BMTİP arasında imzalanacaq qrant müqaviləsinin rəsmi dövlət qeydiyyatından keçdiyi zamandan başlaması nəzərdə tutulur. |
| 3. | Müqavilə 31 avqustda imzalanacaqsa, layihə təkliflərində fəaliyyətlərin başlanması tarixi nə qoyulmalıdır? | BMTİP və təşkilat arasında Qrant müqaviləsinin 31 avqust tarixində imzalanması, layihənin icrasının Qrant müqaviləsinin rəsmi dövlət qeydiyyatından keçdiyi zamandan başlaması nəzərdə tutulur. Bu səbəbdən layihənin başlama tarixinin deyil, ay üzrə (1-ci ay) göstərilməsi tövsiyə olunur. |
| 4. | Qrant müqavilələrinin dövlət qeydiyyatına alınması üzrə vaxt məhdudiyyəti müəyyən edilibmi? | Qrant müqavilələrinin dövlət qeydiyyatı ilə bağlı hər hansı vaxt məhdudiyyəti müəyyən edilməyib. Lakin müvafiq vaxt çərçivəsində qrant müqaviləsinin qeydiyyata alınmasına nail olmaq QHT-nin marağında olmalı və təklif edilən layihənin icra müddətini təmin etməlidir. |

| | | |
|---|---|---|
| 5. | 1-ci Qrant Proqramında QHT-lərə dair tələblərdən biri kimi regioanlarda təsis edilməsi qeyd edilib. Yalnız regionlarda təsis edilmiş QHT-lər bu proqramda iştirak edə bilərlər? | Azərbaycanın hər hansı regionunda (o cümlədən, Bakıda) təsis edilmiş QHT proqramda iştirak edə bilər, yalnız layihə fəaliyyətlərinin coğrafi olaraq Bakıdan kənarda (regionlarda) həyata keçirilməsi tələb olunur. |
| 6. | Beynəlxalq təşkilatın Azərbaycandakı filialı Qrant Proqramlarına müraciət edə bilərmi? | Beynəlxalq təşkilatın Azərbaycanda ictimai birlik kimi qeydiyyatdan keçmiş filialı proqramlarda iştirak edə bilər. |
| 7. | Tərəfdaş yalnız yerli təşkilat olmalıdır? | Tərəfdaş həm yerli, həm də beynəlxalq təşkilat ola bilər. |
| 8. | Layihə təklifini Azərbaycan dilində təqdim etmək olar? | 1-ci Qrant Proqramında layihə təklifini həm Azərbaycan, həm də ingilis dilində təqdim etmək olar. 2-ci Qrant Proqramında layihə təklifi yalnız ingilis dilində təqdim edilməlidir. |
| 9. | 3 prioritet sahə qeyd olunub. Bəs əlilliyi olan şəxslər və onların ailələri oraya daxil deyil? | Layihə təkliflərinin 3 prioritet sahəni əhatə etməsi nəzərdə tutulur. Əlilliyi olan şəxslər və onların ailələri və ya digər hədəf qrupları layihə təklifinin tərtibatından və planlaşdırılan tədbirlərdən asılıdır. Əliliyi olan şəxslərlə bağlı uyğun tədbirlər hər bir Qrant Proqramı üzrə DİM və hədəflər siyahısında (Əlavə F) müəyyən edilmişdir. |
| 10. | Təşkilat 3 istiqamət üzrə yalnız bir layihə verə bilər? | Bəli, təşkilat 3 prioritet mövzudan bir və ya bir neçəsini əhatə edən yalnız **bir** layihə təqdim edə bilər. Ümumilikdə, bir layihədə 2-dən artıq mövzunun seçilməsi tövsiyə edilmir. |
| 11. | Sumqayıt region sayılırmı? | Bəli. |
| 12. | Layihə təklifi edən təşkilatın fəaliyyət sahəsi, təcrübəsi (background) layihənin qəbul edilməsində nə dərəcədə rol oynayır? | Layihə təklif edən Ərizəçinin maliyyə və ümumi fəaliyyət potensialı (həmçinin, təsvir edilən sahədə və regionda) əsas qiymətləndirmə meyarlarındandır. Ətraflı məlumat üçün Kiçik Qrant Proqramlarında iştiraka dəvətlə bağlı Təlimatların 2.3. bəndi və təqdim edilmiş qiymətləndirmə cədvəlinə baxa bilərsiniz. |
| 13. | QHT 2 qrant proqramının ikisinə də qoşula bilər? | Bir QHT Ərizəçi qismində yalnız bir Qrant Proqramına müraciət edə bilər. |

| | | |
|---|---|---|
| 14. | Enerji effektivliyi, məsələn evlərdə istilik sistemini təkmilləşdirməklə layihə vermək olarmı? ("Climate change" istiqaməti üzrə) | Hər hansı mövzu ilə bağlı şərh verilmir. Ətraflı məlumat üçün Kiçik Qrant Proqramında iştiraka dəvətlə bağlı Təlimatın 1.2. bəndinə və hər bir Qrant Proqramı üzrə DİM-lərin siyahısına (Əlavə F) baxa bilərsiniz. |
| 15. | Dövlət qurumları da tərəfdaş ola bilərmi? | Bəli, dövlət qurumları tərəfdaş ola bilər. |
| 16. | Avropa İttifaqının maliyyələşdirdiyi Pozitiv Valideynlik Platformalarının yaradılması, eləcə də erkən uşaqlıq dövrünün İnkişafı üzrə sosial səfərbərliklə bağlı layihənin davamını verə bilərikmi? | Mövzular üzrə şərh verilmir. Təklif olunan layihə yeni olmalıdır, lakin əvvəlki layihələrin nəticələrinə əsaslana bilər. |
| 17. | Təşəbbüs qrupları koalisiya olaraq müraciət edə bilərmi? | Təşəbbüs qrupları koalisiya olaraq layihədə tərəfdaş kimi iştirak edə bilərlər. Lakin layihə bir Ərizəçi təşkilat tərəfindən təqdim olunmalıdır. Ərizəçi qeydiyyatdan keçmiş təşkilat olmalıdır. |
| 18. | Beynəlxalq ekspert (fiziki olaraq) cəlb edilə bilərmi? | Layihənin icrası üçün zəruri olduğu əsaslandırılmaqla beynəlxalq ekspert cəlb edilə bilər. |
| 19. | Nəqliyyat, kommunikasiya xərcləri haraya aid edilir? | Yerli ofisin (layihə idarəetmə heyətinin) nəqliyyat və kommunmikasiya xərcləri layihə büdcəsinin 4-cü bəndində (yerli ofis xərcləri) əks etdirilir. |
| 20. | Səfər xərcləri nəzərdə tutulurmu? | Layihənin idarəetmə heyətinin ezamiyyət xərcləri idarəetmə xərclərinə daxildir. Məsləhətçilərin səfər xərcləri uyğun xərclərə daxildir. Xərclər BMT-nin https://icsc.un.org/ ünvanında göstərilən tariflər çərçivəsində olmalıdır. |
| 21. | Avadanlıq alınması xərcləri üçün limit varmı? Layihənin sonunda bu avadanlığı icmaya saxlaya biləcəyikmi? | Layihə çərçivəsində avadanlıq alınmasına limit yoxdur, lakin bu avadanlıqların alınması layihə fəaliyyətləri ilə birbaşa əlaqəli olmalı və zəruriliyi əsaslandırılmalıdır. Alınmış avadanlıqların layihənin sonunda benefisiarlara (icmaya və ya hədəf qruplarına) təhvil verilməsi şərtdir. |
| 22. | Qrant proqramında qeyd olunur ki, idarəetmə ilə bağlı xərclər ümumi layihə xərclərinin 25%-dən artıq ola bilməz. Buraya hansı | Layihələrin idarəetmə xərclərinə aşağıdakılar daxildir:<br>i) sosial ödənişlər və digər əlaqədar xərclər daxil olmaqla layihə heyətinin maaşları; |

| | | |
|---|---|---|
| | xərclər daxildir? Layihə komandasının əmək haqları ilə bağlı sosial ödəmələr də buraya daxildirmi? | ii) rabitə xərcləri (telefon, internet);<br>iii) monitorinq məqsədləri üçün layihə heyətinin səyahət xərcləri. |
| 23. | Məsləhətçi xərcləri də 25% idarəetmə xərclərinə daxildirmi? | Layihə fəaliyyətləri ilə bağlı əsaslandırılmış şəkildə cəlb edilmiş məsləhətçilərin xərcləri 25% həddində idarəetmə xərclərinə daxil deyil. |
| 24. | Layihə çərçivəsində layihə heyətinin və icma üzvlərinin xaricdə təcrübə keçməsi ilə xərcləri layihə qarşılayacaqmı və bu xərclər hansı maddədə göstərilməlidir? | Layihə fəaliyyətləri ilə birbaşa əlaqədar zəruriliyi və layihənin davamlılığına təsiri əsaslandırıldığı təqdirdə layihə heyəti və benefisiarların xaricdə təcrübə proqramında iştirakı nəzərdə tutula bilər. Bu xərclər layihə büdcəsinin 2-ci (səyahət) bölməsində əks etdirilməlidir. |
| 25. | Layihədə təşkilatın töhfəsi nəzərdə tutulurmu? | Qrant Proqramı məqbul xərcləri 100% maliyyələşdirir. İştirak edən təşkilatın töhfəsi (cost-sharing) tələb olunmur. |
| 26. | Layihədə icmanın töhfəsi nəzərə alınırmı? | Layihədə benefisiarın hər hansı töhfəsi dayanıqlığa xidmət edən element kimi məqbul hesab edilir. |
| 27. | Tərəfdaşlar üçün inzibati xərclər nəzərdə tutula bilərmi? | Qrant Proqramında Ərizəçi ümumi büdcəsi olan bir layihə ilə iştirak edir. Tərəfdaşlarla bağlı inzibati xərclər layihənin ümumi büdcəsinin inzibati xərclərinə daxildir. |
| 28. | Layihəyə müraciət üçün sənəd formalarını haradan yükləmək mümkündür? | Müraciət sənədlərini aşağıdakı linkdən yükləmək olar.<br>https://www.undp.org/az/azerbaijan/news/iki-kicik-qrant-vetendas-cemiyyeti |
| 29. | Maksimum qrant məbləği nə qədər müəyyən edilmişdir? | 1-ci Qrant Proqramı üzrə<br>● Minimum məbləğ: 15.756 US$<br>● Maksimum məbləğ: 26.260 US$<br><br>2-ci Qrant Proqramı üzrə<br>● Minimum məbləğ: 31.512 US$<br>● Maksimum məbləğ: 52.521 US$ |

| | | |
|---|---|---|
| 30. | Qrant Proqramında bələdiyyələr iştirak edə bilərmi və ya sadəcə QHT-lərin iştirakı mümkündür? | Bələdiyyələr Qrant Proqramında tərəfdaş olaraq iştirak edə bilərlər. |
| 31. | Məlumat sessiyasının səsyazısı (recording) paylaşılacaqmı? | Məlumat sessiyasının video-yazısı paylaşılmayacaq, lakin qaçılması tövsiyə olunan səhvlərlə bağlı təqdimat paylaşıla bilər. |
| 32. | QHT-nin həmin movzuda təcrübəsiz, amma təklifi uyğundursa, qəbul olunacaqmı? | Layihə təklif edən Ərizəçinin maliyyə və ümumi fəaliyyət potensialı (həmçinin, təsvir edilən sahədə və regionda) əsas qiymətləndirmə meyarlarındandır. Ətraflı məlumat üçün Kiçik Qrant Proqramlarında iştiraka dəvətlə bağlı Təlimatların 2.3. bəndi və təqdim edilmiş qiymətləndirmə cədvəlinə baxa bilərsiniz. |
| 33. | Qrant proqramı çərçivəsində dəstəklənən fəaliyyətlər sırasında koalisiyaların və ittifaqların yaradılması nəzərdə tutulur. Koalisiyaların yaradılması dedikdə nə nəzərdə tutulur? QHT-mi? | Koalisiyaların və ya birliklərin yaradılması dedikdə mütləq şəkildə QHT yaradılması deyil, icma birlikləri, icma qrupları və şəbəkələri kimi dəstək mexanizmləri nəzərdə tutulur. Layihənin sonunda hədəf qrupların və ya icmaların təmsilçiliyinin gücləndirilməsi ilə bağlı hər hansı təşkilatlanma təklifi Ərizəçinin yanaşmasından asılıdır. |
| 34. | 1-ci Qrant Proqramı çərçivəsində yalnız maarifləndirmə tədbirləri nəzərdə tutulurmu? İcmalara praktik və birbaşa dəstək tədbirləri nəzərdə tutulurmu? | 1-ci Qrant Proqramı çərçivəsində yalnız maarifləndirmə tədbirləri nəzərdə tutulmur. Proqram hüquqi yardım, biznesə dəstək və sosial xidmətlər daxil olmaqla həssas qrup insanları və icmaları dəstəkləyəcək birbaşa tədbirləri, həmçinin, kiçik miqyaslı icma təşəbbüslərinə dəstək tədbirlərini də dəstəkləyir. |
| 35. | Tərəfdaşın qeydiyyatı tələb olunurmu? | Xeyr. |
| 36. | Layihə təkliflərinin inzibati qiymətləndirilməsi dedikdə nə nəzərdə tutulur? | Layihə təklifinin inzibati qiymətləndirilməsi aşağıdakıları nəzərdə tutur:<br>● təqdimat üçün müəyyən edilmiş son tarixə uyğunluğu - son tarixə əməl edilmədikdə, müraciət avtomatik olaraq rədd edilir.<br>● Müraciət Formasının tamlığı - tələb olunan məlumatlardan hər hansı biri əskik və ya səhv olarsa, müraciət bu səbəblə rədd edilə bilir və qalan qismi qiymətləndirilmir. |

| | | |
|---|---|---|
| 37. | Bir QHT hər iki qrant proqramında iştirak edə bilərmi? | Bir QHT əsas təşkilat kimi (Ərizəçi) yalnız bir qrant proqramında iştirak edə bilər. Həmin QHT digər Qrant Proqramında layihə komanda üzvü və ya Tərəfdaş kimi iştirak edə bilər. |
| 38. | Aİ-nin maliyyələşdirdiyi digər BMT agentliyinin qrant proqramında iştirak BMTİP-nin qrant proqramlarında iştirakı məhdudlaşdırırmı? | Qrant proqramlarının məqsədləri və BMT agentliklərinin missiyası fərqli olduğundan Aİ-nin maliyyələşdirdiyi digər BMT agentliyinin qrant proqramında iştirak həmin QHT-nin BMTİP-nin bu qrant proqramlarında iştirakını məhdudlaşdırmır. |
| 39. | Əvvəlki dövrlərdə digər donor tərəfindən başlamış proqramda indi maliyyələşməyən tədbirləri bu qrant proqramına daxil etmək olarmı? | Təklif olunan layihə yeni olmalıdır, lakin əvvəlki layihələrin nəticələrinə əsaslana bilər. |
| 40. | Bir neçə qadın resurs mərkəzi birləşib layihə təqdim edərsə, bu layihənin maliyyəsi necə bölüşdürüləcək? Bir layihə büdcəsi kimi qəbul ediləcək və ya bir neçə region üzrə bölünəcək? | Bir neçə qadın resurs mərkəzi birləşib layihədə tərəfdaş kimi iştirak edə bilər, lakin ümumi layihə bir Ərizəçi təşkilat tərəfindən təqdim olunmalı və layihənin ümumi bir büdcəsi olmalıdır. |
| 41. | Qiymətləndirmə hər bir layihə üçün mühümdür. Büdcə üçün audit fəaliyyətə daxil edilməlidirmi? Bu Qrant Proqramı qiymətləndirmə və audit xərclərini uyğun hesab etmir. İzah edə bilərsinizmi? | Qrant Proqramı çərçivəsində mükafatlandırılcaq təşkilat ilə BMTİP arasında Qrant Müqaviləsi imzalanacaq və təşkilat tərəfindən icra ediləcək layihə ilə bağlı hesabatlılıq Qrant Müqaviləsinin şərtlərinə əsasən aparılacaq. Təşkilat həyata keçirdiyi layihənin kənar qiymətləndirilməsində maraqlıdırsa, bununla bağlı audit cəlb edə bilər, lakin bu xərclər Qrant Proqramı çərçivəsində uyğun hesab edilməyəcək. |
| 42. | Hər iki Qrant proqramında tərəfdaşlıq tövsiyə olunur. Dövlət qurumu ilə tərəfdaşlıq layihənin dayanıqlılığına xidmət edir. Lakin iştirak edən QHT tərəfindən dövlətlə tərəfdaşlıq barədə dəstəkləyici məktubun təqdim edilməsi üstünlük kimi istifadə olunmamalıdır. Bu, ədalətlilik və şəffaflıq prinsiplərinin pozulması risklərini və sui-istifadə hallarını yarada bilər. | Layihədə iştirakla bağlı tərəfdaşlar tərəfindən imzalanmış Tərəfdaşlıq bəyannaməsi və tərəfdaşın profilinin (Əlavə E) təqdim edilməsi tələb olunur. Qiymətləndirmə və seçim ümumi müəyyən edilmiş meyarlar əsasında aparılacaq və digər dəstəkləyici sənədlər üstünlük təşkil etmir. |
| 43. | İndiyədək BMTİP-nin bu layihəsinin tədbirlərində (təlim, vebinar) iştirak etməmiş təşkilatlar da qrant proqramlarına müraciət edə | Qrant proqramlarında iştirak hamı üçün açıqdır. Eyni zamanda, layihənin tərtibatı zamanı BMTİP layihəsi çərçivəsində təşkil olunmuş təlimlərdən qazanılmış biliklərin praktik tətbiqi tövsiyə olunur. |

| | | |
|---|---|---|
| | bilərlər? Qrant Proqramlarında iştirakla bağlı dəvət hamı üçün açıqdırmı? | |
| 44. | Gender bərabərliyi deyəndə nə nəzərdə tutulur? Qadınların üstünlüyümü? Yaxud qadın və kişilərin bərabər iştirakı? | Gender bərabərliyi bütün proseslərdə qadın və kişilərin bərabər iştirakını nəzərdə tutur. Bir çox hallarda qadınların proseslərə (tədbirlərə) daha az cəlb olunduğu müşahidə edilir. Bu qrant proqramlarında layihə fəaliyyətlərinə həm qadın, həm də kişilərə münasibətdə bərabərlik prinsiplərinin tətbiq olunması tələb olunur. |
| 45. | Hər iki qrant proqramının prioritet mövzuları eynidir. Fərq nədir? | Hər iki qrant proqramının prioritet mövzularının eyni olmasına baxmayaraq, qrant proqramlarının məqsəd və gözlənilən nəticələri müxtəlifdir. Layihə fəaliyyətləri bu mövzular üzrə qrant proqramının məqsədlərinə müvafiq tərtib edilməlidir. Layihə fəaliyyətləri seçilmiş DİM-lər və hədəflərinə nail olunmasına töhfə verməlidir. Hər bir qrant proqramı üzrə seçilmiş DİM-lərin siyahısına baxın (Əlavə F). |
| 46. | Hər iki Qrant Proqramında sorğular, fokus qrup müzakirələri nəzərdə tutulur. Yəqin ki, nəticələr fərqlidir və bu tədbirlər gözlənilən nəticələrə xidmət etməlidir? | Hər iki Qrant Proqramında oxşar fəaliyyətlər (müzakirələr, sorğular, müsahibələr) nəzərdə tutulmasına baxmayaraq, Qrant Proqramlarının məqsəd və gözlənilən nəticələri müxtəlifdir. Bu fəaliyyətlərin tərtibatı zamanı Qrant Proqramının məqsədlərinə uyğunluq nəzərdə tutulmalıdır. |
| 47. | Xərclərin normativləşdirilməsi (əmək haqqı, kommunal və digər xərclərin maksimum və minimum hədləri) varmı? | Qrant proqramlarında hər hansı xərclərin normativləşməsi nəzərdə tutulmayıb. Lakin daxil edilən xərclər bazar tariflərinə uyğunlaşdırılmalı və layihə fəaliyyətlərinə müvafiq müəyyən edilməlidir. Məbləğlər və ya qiymətlər statistik məlumatlar və ya hər hansı digər obyektiv məlumatlardan istifadə etməklə, yaxud ərizəçinin tarixi məlumatlarına və ya bazar araşdırmasına istinadən aparılmış hesablamalara əsaslanmalıdır. |
| 48. | QHT üçün alınmış avadanlıq (məsələn, kompüter) sonradan QHT-yə qala bilərmi və ya təhvil verilməlidir? | Layihə fəaliyyətləri ilə bağı zərurəti əsaslandırılmaqla QHT üçün avadanlıq alına bilər, lakin layihənin sonunda benefisiara təhvil edilməsi şərtdir. |
| 49. | Bir qrant proqramında layihə rəhbəri digər qrant proqramında layihə iştirakçısı (layihə komanda üzvü) ola bilərmi? | Bir qrant proqramında layihə rəhbəri digər qrant proqramında layihə iştirakçısı ola bilər. |

| | | |
|---|---|---|
| 50. | Təqdim olunan sənədlərin şrift ölçüsü necə olmalıdır? | Şrift ölçüsü təqdim olunan formaların şrifti və ölçüsü ilə eyni olmalıdır. |
| 51. | 2-ci Qrant Proqramında əməliyyat xərcləri nəzərdə tutulumu? | 2-ci Qrant Proqramında əməliyyat xərcləri nəzərdə tutulmur. |
| 52. | Biz, təşkilat olaraq BMT-nin İnkişaf Proqramının həyata keçirdiyi hansı qrant proqramlarında iştirak edə bilərik? Zəhmət olmasa, bu barədə məlumat verin. | Hər iki Qrant Proqramı Azərbaycanda qeydiyyatda olan bütün təşkilatlara açıqdır. Proqram seçimi hər bir təşkilatın öz qərarıdır. |
| 53. | 1-ci Qrant proqramında qeyd olunub ki, yalnız regionlarda qeydiyyatdan keçmiş VCT iştirak edə bilər. Onda, biz Bakıda qeydiyyatdan keçdiyimiz üçün verə bilmərik?<br>2-ci Qrant proqramında ölkə üzrə olan QHT-lər Bakı və region fərq olmadan layihə verilməsi qeyd olunubdur. Yəqin bu bizim mürcaiətimiz üçün əsas yaradır. | Azərbaycanın hər hansı regionunda (o cümlədən, Bakıda) təsis edilmiş QHT-lər hər iki Qrant Proqramında iştirak edə bilərlər. Lakin 1-ci Qrant Proqramına təqdim edilmiş layihələrin fəaliyyətlərinin coğrafi olaraq Bakıdan kənarda (regionlarda) həyata keçirilməsi tələb olunur. |
| 54. | BMTİP-nin elan etdiyi kiçik qrant müsabiqəsində vətəndaş təşkilatı təmsilçisi olaraq iştirak etmək üçün köməklik etməyinizi xahiş edirəm. | Hər iki Qrant Proqramı Azərbaycanda qeydiyyatda olan bütün QHT-lərə açıqdır. Təqdim edilmiş layihələrin qiymətləndirilməsi və seçilməsi Qrant Proqramlarında iştiraka dəvətlə bağlı Təlimatlarda qeyd olunmuş meyarlar əsasında aparılacaqdır. |
| 55. | Bildiyiniz kimi, ölkəmizdə QHT-lər beynəlxalq qurumlar tərəfindən maliyyələşdiriləndə, hüquqi şəxs olaraq qrant sazişlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçirmək çox çətin olur. Bir çox xarici donor QHT-ləri maliyyələşdirərkən fərdi müqavilə imzalamağı daha münasib bilir (Qeyd etmək istərdim ki, bizim Birlik ABŞ Səfirliyinin maliyyə mənbəyi ilə 3 layihə icra edib, müqavilə mənimlə (fiziki şəxs kimi) imzalanıb. Layihəmiz qalib seçilərsə, müqavilə hansı formada imzalanacaq? | BMTİP ilə qalib təşkilat arasında Qrant Müqaviləsi imzalanacaq. Layihənin icrasının mükafatlandırılacaq QHT və BMTİP arasında imzalanacaq qrant müqaviləsinin rəsmi dövlət qeydiyyatından keçdiyi zamandan başlaması nəzərdə tutulur. |
| 56. | Təqdim etdiyiniz formalarda imza və möhür, habelə layihə menecerinin adı və soyadı üçün yer nəzərdə tutulmayıb. Bu formalar işarələnməli, imzalanmalı və möhürlənməli deyilmi? | Əlavə C: Ərizəçinin bəyanatı və Əlavə E: Tərəfdaşlıq bəyannaməsi və tərəfdaşın (tərəfdaşların) profili imzalanmalı, skan edilməli və .pdf formatında təqdim edilməlidir. Sənədlərin möhürlənməsi zəruri deyil. |
| 57. | Təlimatda qeyd edilib ki, bütün formalar doldurulandan sonra, onlar həm Azərbaycan, həm də İngilis dilində təqdim edilməlidir. Bu | Birinci qrant proqramına ("İnklüziv yerli inkişafda vətəndaş cəmiyyəti təşkilatlarının iştirakını dəstəkləmək mövzusunda Kiçik Qrant Proqramı") |

| | | |
|---|---|---|
| | aydındır. Biz onları PDF formatında təqdim etməliyik, yoxsa olduqları kimi (məs., World və ya Excel formatında)? | dair Müraciət və onun bütün əlavələri **Azərbaycan və ya İngilis** dilində təqdim edilə bilər.<br>İkinci qrant proqramına ("Dəlil əsaslı siyasətlərin hazırlanmasında, siyasətlə bağlı dialoq və müzakirələrdə vətəndaş cəmiyyəti təşkilatlarının iştirakını dəstəkləmək mövzusunda Kiçik Qrant Proqramı") dair Müraciət və onun bütün əlavələri yalnız **İngilis** dilində təqdim edilməlidir. Xahiş edirik ki, Müraciət və onunun əlavələrinin hansı formatda təqdim edilməli olduğuna dair ətraflı məlumat üçün müvafiq Kiçik Qrant Proqramının "2.2.2 Müraciətləri hara və necə göndərmək olar" bölməsinə baxasınız. |
| 58. | Biz hüquqi şəxs olaraq MMC kimi qeydiyyatdan keçmişik, lakin bütün fəaliyyətimizin məqsədi gəlir deyil. Biz qrant proqramılarınızda iştirak edə bilərik? Hal-hazırda QHT kimi qeydiyyat prosesindəyik, lakin 24 iyun tarixinədək qeydiyyatımız tamamlanmaya bilər. | Elan etdiyimiz qrant proqramlarında yalnız QHT kimi qeydiyyatda olan təşkilatlar iştirak edə bilər. Proqrama müraciət etmək üçün QHT kimi qeydiyyatınız olmalıdır. Xahiş edirik ki, ətraflı məlumat üçün "Kiçik qrant proqramı üzrə iştiraka dəvət" sənədinin 2.1.1. – "Ərizəçinin və onun tərəfdaş(lar)ının uyğunluğu" bölməsinə baxasınız. |
| 59. | Büdcənin yazılması ilə bağlı bir nümunə göndərməyinizi xahiş edirəm. | Əfsuslar olsun ki, doldurulmuş nümunə göndərə bilmərik. Hər bir qrant proqramına aid sənədlərdə "Annex B_Project_Budget" adlı şablon var. Birinci qrant proqramında bu sənəd həm İngilis, həm Azərbaycan dilində, ikinci qrant proqramında isə yalnız İngilis dilində verilib. Xahiş edirik ki, büdcəni müvafiq qrant proqramına aid olan həmin şablona uyğun hazırlayasınız. |
| 60. | Biz Rayon və kəndlərdə yaşayan həyat yoldaşlarını itirmiş qadınlarla bağlı layihə təklif etmək istəyirik. Bu cür müraciət elana uyğundurmu? | Hər hansı layihə ilə bağlı şərh verilmir. Layihənin mövzusu, məqsədləri və nəticələri Kiçik Qrant Proqramında iştiraka dəvətlə bağlı Təlimatın 1.2. bəndinə və hər bir Qrant Proqramı üzrə DİM-lərə (Əlavə F) uyğun olmalıdır. |
| 61. | Hədəf qrupunun aşağı və yuxarı yaş həddi necədir? | Hədəf qrupunun yaş həddinə dair tələb qoyulmur. Eyni zamanda bildiririk ki, layihə yalnız "Əlavə F: Prioritetləşdirilmiş DİM hədəflərinin və göstəricilərinin siyahısı"-da göstərilən hədəf qruplarına dəstək verə bilər. |
| 62. | 30,40 nəfərlik hədəf qrupunun sayı elana uyğundurmu? | Hədəf qrupuna daxil olanların sayına dair tələb qoyulmur. Təxmini xərclər və gözlənilən nəticələr arasında nisbət qənaətbəxş olmalıdır.<br>Xahiş edirik ki, tələbləri nəzərdən keçirmək məqsədilə Kiçik Qrant Proqramında iştiraka dəvətlə bağlı Təlimatın 1.2, 2.1 və 2.3 bölmələrinə diqqət yetirəsiniz. |
| 63. | Layihə büdcəsində iaşə xərcini 4.2-yə (İcarə haqqı), veb səhifənin hazırlanması xərcini 5.1-ə (Nəşrlər), müəssisədə peşə hazırlığı ilə bağlı xərcləri 5.4-ə (Maliyyə xidmətləri), məsləhət xidmətlərini 5.5.ə (Konfrans, | Hər hansı tədbirlə bağlı iaşə (catering və bu kimi xərclər) 5.5 Konfrans/seminar xərclərinə daxil edilməlidir. Veb səhifənin hazırlanması xərci 5.6 Kommunikasiya və təşviqat xərclərinə (Visibility actions) daxil edilməlidir. Məsləhət xidmətləri |

| | | |
|---|---|---|
| | seminar xərcləri) daxil etmişəm. Səhv etməmişəm ki? Sizcə hansı bölməyə daxil etməyim doğru olardı? | üçün 6. Digər (6. Other) altında alt-bəndlər daxil edilməlidir və hər bir alt bəndin adı göstərilməlidir. |
| 64. | Layihə təklifinin 5-ci bölməsinə aid (Məntiqi Çərçivə) əvvəllər icra olunmuş layihələrdən biri üzrə tam doldurulmuş nümunəni göndərə və ya veb səhifədə yerləşdirə bilərsinizmi? Təqdim olunan formada tələb olunan suallar təlim zamanı doldurduğumuz formadan bir qədər fərqlidir. | Əfsuslar olsun ki, hər hansı nümunə göndərə bilmərik. Məntiqi Çərçivəyə dair keçirilən təlimdə hazırkı formada göstərilən bütün elementlər haqqında məlumat verilmişdir. Xahiş edirik ki, təlimin təqdimatına bir daha nəzər yetirəsiniz. https://drive.google.com/drive/folders/1-fM0Kua4EyUi4sD9uL90D9WB-bH-m5tE?usp=sharing |
| 65. | Layihə təklifi formasında "Layihənin toxunduğu DİM hədəf(lər)i" hissəsində Əlavə F-dən konkret DİM hədəf göstərilməlidir? | Bəli, Əlafə F-dən konkret DİM hədəf(lər) göstərməlisiniz |
| 66. | Outcome (Nəticə) və Output (Dərhal nəticə) arasında fərqi izah edə bilərsiniz: Azərbaycan dilində olan variantda hər ikisi "Nəticələr" kimi göstərilib. | Outcome (Nəticə) və Output (Dərhal nəticə) haqqında məlumatı təqdimatlardan tapa bilərsiniz https://drive.google.com/drive/folders/1-fM0Kua4EyUi4sD9uL90D9WB-bH-m5tE?usp=sharing |
| 67. | Layihə təklifi formasının "Məntiqi Çərçivə" hissəsində "İlkin vəziyyət (baza ili daxil olmaqla)" dedikdə nə nəzərdə tutulur? | İlkin vəziyyətə dair məlumatı təqdimatlarda tapa bilərsiniz https://drive.google.com/drive/folders/1-fM0Kua4EyUi4sD9uL90D9WB-bH-m5tE?usp=sharing |
| 68. | Məntiqi Çərçivəyə aid təlim materialı ilə tanış oldum. Bəzən output, outcome və outputlar üzrə tədbirlərin adlarını sözlə yazırlar (bu, çox yer aparır), bəzi cədvəllərdə isə sadəcə nömrələrini göstərirlər. Hansı doğrudur? | Sözlə yazmaq daha doğrudur və təklifi qiymətləndirən üçün daha rahatdır. Təlim materiallarında bu sadələşdirilmiş formada göstərilmişdir. |
| 69. | Bir müddət əvvəl C.Boytun təlimində Kommunikasiya Planı hazırladıq. Bu Planı layihəyə əlavə etmək məsləhətdirmi? (Tələb olunan faylların içərisində bu yoxdur). | Təlimin sonunda tərtib edilmiş kommunikasiya planını əlavə etmək tələb olunmur. Əlavə A - Layihə təklifi formasının, VII Bölməsi: Icra Tədbirlərində Layihənin təbliğini və Aİ və BMTİP tərəfindən maliyyələşdirilmənin aşkarlığını təmin etmək üçün planlaşdırılan tədbirləri yazmaq tələb olunur. Ümidvarıq ki, bu işdə təlimdən qazandığınız biliklərdən istifadə edəcəksiniz. |
| 70. | Bəzi tərəfdaşlarımız hüquqi şəxslərdir, onların Tərəfdaşlıq Bəyannaməsinə imza atması yetərlidirmi? Ərizəçinin təqdim etdiyi sənəddə də imza yeri var. Möhürə ehtiyac olmayacaq ki? | Tərəfdaşlıq bəyannaməsində imzaların olması mütləqdir, möhür zəruri deyil. Tərəfdaşlıq bəyannaməsini imzalayan şəxs səlahiyyətli şəxs olmalıdır. |
| 71. | Sizin təqdimatınızda Output hissəsi də qeyd olunub, halbuki applicationda bu hissə yoxdur. Aydınlıq gətirməyi xahiş edirəm | "Əlavə A. Layihə təklifi forması"nda "V Bölmə. Məntiqi çərçivə"də həm OUTOME, həm də OUTPUT hissəsi var. |
| 72. | Layihə təklifi formasında Impact hissəssi yoxdur. | Əlavə A. Layihə təklifi formasının Məntiqi çərçivə hissəsində verilən cədvələ tələb olunan məlumatları daxil etmək kifayətdir. Burada göstərilməyən elementlərin daxil edilməsi (məs., İmpact / Təsir) tələb olunmur. Təsir (İmpact) Əlavə A, Bölmə VI: Layihənin Dayanıqlılığı hissəsində göstərilməlidir. |
| 73. | Birinci səhifədə Project outcome(s) and expected outputs hissəsi var. Logical frameworkdan sadece copy paste olunmalidir? | Layihənin nəticə(lər)i və gözlənilən məhsullar (Project outcome(s) and expected outputs) təklifin bütün hissələrində eyni olmalıdır. |

| | | |
|---|---|---|
| 74. | Eyni zamanda layihə təklifi də göndərmək lazımdır? | Layihə təklifi və bütün digər tələb olunan sənədləri 24 iyun 2022-ci il Bakı vaxtı ilə 18:00-dək info.az@undp.org ünvanına göndərilməlidir. |